Ədalət 2019.- 15 iyun.- S.7.

# *XALQ YAZIÇISI ELÇİNİN ALMANİYADA YENİ KİTABLARI*







**Xalq yazıçısı Elçinin dramaturgiyası xarici ölkələrin teatrlarında tez-tez tamaşaya qoyulur və get-gedə beynəlxalq səviyyədə daha geniş miqyaslı populyarlıq əldə edir. Onun pyesləri əsasında Nyu-York, London, Roma, İstanbul, Ankara, Moskva, Peterburq və başqa şəhərlərin teatrlarında hazırlanmış tamaşalar rəğbətlə qarşılanmış, müasir dramaturgiyanın uğurları kimi qiymətləndirilmişdir. "Cəhənnəm sakinləri" pyesi əsasında ingilis bəstəkarı Lorens Mark Vitin yazdığı müzikl isə Cənubi Koreyada, Seul Opera və Balet teatrında böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.**

Bu günlərdə isə Almaniyada "Pemverlaq" nəşriyyatı Xalq yazıçısının "Pyeslər" ("Teatr oyunları") ktabını nəfis şəkildə nəşr etmişdir. Kitaba ədibin məşhur "Teleskop", "Mənim sevimli dəlim", "Şekspir" və "Cəhənnəm sakinləri" tragikomediyaları daxil edilmişdir. Pyesləri orijinaldan alman dilinə türkoloq K.H.Kiel tərcümə etmişdir. Maraqlı cəhət odur ki, nəşriyyat həmin pyesləri eyni zamanda türk dilində də ayrıca kitab kimi nəşr etmişdir. Əsərləri türk dilinə doktor Orxan Araz tərcümə etmişdir. O.Araz kitabı oxuculara təqdim edərək yazır: "Dünyaca tanınmış yazar Elçin, sadəcə çağdaş dövrümüzdə deyil, gələcəkdə də oxunacaq və əsərlərindən dərslər alınacaq bir yazardır."

Qeyd etmək lazımdır ki, alman oxucuları Xalq yazıçısı Elçinin əsərləri ilə yaxşı tanışdırlar. Almaniyada onun "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Baş" romanları, eləcə də povest və hekayələri nəşr edilmişdir. "Pyeslər" onun Almaniyada nəşr olunmuş səkkizinci kitabıdır.